

# Kitaba bağlı mənalı ömür yolu

**Müasir dövrdə Azərbaycanda kitabxana işinin inkişafında, onun zamanın tələbləri səviyyəsinə çatdırılmasında xüsusi əməyi olan insanlardan biri də bu günlərdə 70 yaşı olacaq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirovdur.**

Kərim Məhəmməd oğlu Tahirov 1951-ci il noyabr ayının 12-də Azərbaycanın səfalı Qarabağ diyarında, Ağcabədi rayonunda anadan olmuşdur. Orta təhsilini öz rayonunda başa vurduqdan sonra o, 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində ali təhsil almışdır. O, 1979-cu ildə təyinatla gənc mütəxəssis kimi ölkəmizdə kitabxana işinin flaqmanı olan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına göndərildi. Əmək fəaliyyətini Elmi-metodiki şöbədə böyük kitabxanaçı kimi başlayan Kərim Tahirov sonradan baş kitabxanaçı, böyük redaktor, bölmə müdiri vəzifələrində çalışaraq 1983-cü ilə qədər bu şöbədə işləmişdir. 1983-1988-ci illərdə o, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Baş Kitabxana Müfəttişliyinin böyük müfəttişi və rəisi vəzifələrində çalışmışdır. Sonrakı illərdə isə Mədəni-maarif müəssisələri idarəsinin, Mədəni-kütləvi işlər, Kitabxana və Muzey işləri Baş İdarəsinin baş müfəttişi, sonralar rəisi vəzifəsində işləyərək respublikada kütləvi kitabxanalar sistemindəki kitabxanaların və muzeylərin fəaliyyətinə rəhbərlik etmişdir.

Kərim Tahirovun əmək fəaliyyətinin sonrakı dövrü yenə də gənc mütəxəssis kimi fəaliyyətə başladığı kitabxana ilə bağlı olmuşdur. 2000-2005-ci illərdə o, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının Metodik və nəşriyyat işləri üzrə direktor müavini vəzifəsində çalışmış, 2005-ci ildə isə Kitabxananın direktoru vəzifəsinə təyin edilmişdir. Bu təyinatdan dərhal sonra o, intensiv şəkildə kitabxananın müasirləşməsi, burada yeni texnologiya və metodların tətbiq edilməsi istiqamətində işlərə başladı. Qarşıda duran ilk vəzifə kitabxanada kompüterləşdirmə, informasiyalaşdırma işinin maddi-texniki və proqram bazasının və server sisteminin yaradılması, keyfiyyətli internet rabitəsinin təşkil edilməsi idi. Belə bir vəziyyətdə Kərim Tahirovun idarəetmə bacarığı, məqsədyönlü və ardıcıl şəkildə çalışmağa imkan verən işgüzarlığı, yüksək iş qabiliyyəti bariz şəkildə özünü göstərdi.

Kitabxananın geniş məzmunlu, lazımi informasiya ilə zəngin internet saytı yaradılaraq istifadəyə verildi. Bu zaman istifadəçilər üçün saytdan keçərək onlayn üsulla kitabxananın elektron kataloquna daxil olmaq üçün imkan da yaradıldı. Tez bir zamanda kitabxananın internet saytı və onlayn kataloqu istifadəçilər arasında yüksək populyarlıq qazandı.

Məlumdur ki, yeni texnologiyalara keçən kitabxanaların qarşısında duran mürəkkəb vəzifələrdən biri onilliklər ərzində formalaşmış, fondundakı sənədləri əks etdirən ənənəvi kataloq-kartoteka sistemindəki informasiyanın mümkün qədər tez bir zamanda elektron kataloqa keçirilməsi məsələsidir. Az bir zamanda kitabxana fondunu təşkil edən sənədlərin əhəmiyyətli hissəsinin elektron kataloqda əks etdirilməsi üçün Kərim Tahirov Milli Kitabxananın bütün qüvvəsini səfərbər edə bildi. 2008-ci ildən etibarən nəinki ölkəmizdən, hətta dünyanın istənilən məkanından olan istifadəçilər bu kataloqa daxil olub müəlliflik hüququnun şərtləri daxilində lazımi sənədin elektron nüsxəsini sifariş verə bilirlər.

Kitabxanada Kərim Tahirovun təşəbbüsü ilə həyata keçirilməyə başlayan digər maraqlı istiqamət tematik onlayn informasiya toplularının - "məlumat bazası" adlandırılan informasiya məhsullarının tərtib edilməsi oldu. Belə ki, kitabxanaçılar cari dövrdə hansı mövzunun aktual olduğunu, oxucuların hansı məsələyə daha çox maraq göstərdiyini müəyyənləşdirir və bundan sonra həmin mövzuya dair kitablar, dövri nəşrlərdəki məqalələr, digər çap materialları, illüstrativ materiallar (fotolar, video materiallar) seçilərək onların elektron versiyaları yaradılır, mövzu ilə əlaqəli biblioqrafik siyahılar tərtib edilir, bütün bunlar xüsusi tərzdə dizayn edilir və Kitabxananın saytına yerləşdirilir. Onlardan bir çoxu görkəmli şəxslərə, əlamətdar hadisələrə, yubileylərə həsr edilir.

2008-ci ildə Rusiya Dövlət Kitabxanasının Elektron dissertasiyalar fondundan istifadə edilməsi üçün Milli Kitabxanada xüsusi guşənin yaradılması çox əhəmiyyətli layihə idi. İndi burada xüsusi məkanda Rusiya Federasiyasında müdafiə edilmiş dissertasiyaları onlayn oxumaq mümkündür. Bunun ardınca Kitabxanada ölkəmizdə müdafiə edilmiş dissertasiyaların avtoreferatlarının tam mətninin internet saytı vasitəsilə istifadə imkanının yaradılması üzrə layihə həyata keçirildi.

Milli Kitabxanaya rəhbərlik etdiyi dövr ərzində diqqəti cəlb edən başqa bir fəaliyyət istiqaməti isə dünyanın kitabxana işi sahəsində aparıcı təşkilatlar ilə, digər ölkələrin milli kitabxanaları, elmi müəssisələri ilə əlaqələrin yaradılması və onlarla əməkdaşlığın təşkil edilməsi oldu. İlk növbədə dünyada kitabxana işi sahəsində əsas beynəlxalq təşkilat olan IFLA-nı (Kitabxana Assosiasiyaları və Təsisatlarının Beynəlxalq Federasiyası) göstərmək olar ki, Milli Kitabxana ona üzv olmuşdur. IFLA-nın məqsədi beynəlxalq kitabxana əməkdaşlığını gücləndirmək və bütün dünya kitabxanaları üçün yüksək səviyyəli kitabxana xidmətlərini, kitabxana işi sahəsində elmi tədqiqatları dəstəkləməkdir.

Kərim müəllimin təşəbbüsü ilə kitabxananın üzvlüyə qəbul olunduğu digər təşkilat - CENL (Avropa Milli Kitabxanalar Konfransı təşkilatı) Avropanın 46 ölkəsinin milli kitabxanalarını əhatə edən, 1987-ci ildən fəaliyyət göstərən nüfuzlu qurumdur. Təşkilatın missiyası Avropanın milli kitabxanalarının işini inkişaf etdirmək, birlikdə daha yaxşı işləmək və kitabxanaların təkbaşına edə biləcəyindən daha çox şeyə nail olmaqdır. Milli Kitabxana bu quruma üzv olaraq onun tədbirlərində fəal iştirak edir, digər üzvlərlə faydalı əməkdaşlıq həyata keçirir.

Milli Kitabxananın üzvü və təsisçilərdən biri olduğu başqa bir təşkilat MDB ölkələrinin aparıcı kitabxanaları tərəfindən yaradılmış Avrasiya Kitabxana Məclisidir. Təşkilat öz sıralarında MDB ölkələrinin 8 kitabxanasını birləşdirir. Milli Kitabxana bu təşkilatın üzvləri ilə sıx əməkdaşlıq edir, birgə layihələr həyata keçirir. Ümumiyyətlə, Milli Kitabxana dünyanın bir sıra milli və digər kitabxanaları ilə qarşılıqlı faydalı əlaqələr həyata keçirir, kitab mübadiləsi aparır, təcrübə mübadiləsi edir, sərgilər təşkil edir və s. işlər aparır.

Kərim Tahirov nəinki gözəl kitabxana mütəxəssisi, həm də istedadlı alimdir. O, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı prosesini dərindən tədqiq etmiş, 2009-cu ildə "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər)" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tarix elmləri namizədi (tarix üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi almışdır. Qeyd edək ki, K.Tahirovun tarixi araşdırmaları Milli Kitabxananın yeni inkişaf strategiyasının formalaşmasında mühüm rol oynamışdır.

Kərim Tahirov "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər)" adlı monoqrafiyanın, "Dünya milli kitabxanaları: M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası" adlı dərs vəsaitinin, 50-dən artıq kitab, kitabça, metodik vəsaitin və fundamental biblioqrafik göstəricinin müəllifi, tərtibçisi və redaktoru, 200-dən artıq elmi məqalənin müəllifidir. Kərim Tahirov müxtəlif ölkələrdə keçirilən elmi konfranslarda və simpoziumlarda məruzələrlə çıxış etmiş, məqalələri bir sıra ölkələrin elmi jurnallarında dərc olunmuşdur. O. "Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri"nin, "Əlamətdar və tarixi günlər təqvimi"nin, "Azərbaycan kitabı" on cildlik milli biblioqrafik repertuarının baş redaktorudur.

Kərim Tahirov həm də Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində pedaqoji fəaliyyətlə də məşğul olur. Professor Kərim Tahirov BDU-nun kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisasları üzrə İxtisaslaşdırılmış Dissertasiya Şurasının üzvüdür.

Professor Kərim Tahirovun fəaliyyəti layiqincə qiymətləndirilmiş, o, 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüş, 2013-cü ildə "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. Milli Kitabxananın fəaliyyətinin səmərəli təşkilinə və inkişafına görə Fəxri fərman, döş nişanı və diplomlarla mükafatlandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının kollektivi adından əziz həmkarımızı, istedadlı kitabxana xadimi, alim və pedaqoq, professor Kərim Tahirovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.

**Mayıl ƏHMƏDOV,**
**Prezident Kitabxanasının direktoru,**
**Əməkdar mədəniyyət işçisi.**

**Əliyusif MƏMMƏDOV,**
**Prezident Kitabxanasının bölmə müdiri.**